UOT: 330.101; 330.59; 330.564.2

Səttar Ceyhun oğlu TOMAYEV
Azərbaycan Turizm və Menecment Universitetinin magistrantı
E-mail: tomayev_s@mail.ru
ORCHID ID: https://orcid.org/0009-0006-8370-8873

Elmi rəhbər: i.e.n. Zöhrab Həsən oğlu İBRAHİMOV
Azərbaycan Dövlət İqtisad Universiteti,
"Maliyyə və Audit" kafedrasının dosenti
https://doi.org/10.30546/4.71.731.03.2026.49

MÜASİR DÖVRDƏ GƏLİRLƏRİN BƏRABƏRLİYİNİN ARADAN QALDIRILMASININ AKTUAL MƏSƏLƏLƏRİ

Xülasə

Tədqiqatda müasir dövrdə gəlirlərin bərabərliyinin aradan qaldırılmasının sosial və iqtisadi aspektləri kompleks şəkildə araşdırılmışdır. Bu tədqiqatın çərçivəsində gəlir anlayışının iqtisadi mahiyyəti, bazar iqtisadiyyatı şəraitində gəlirlərin diferensiasiyası və bu prosesə təsir edən əsas amillər təhlil edilmişdir. Müəyyən edilmişdir ki, gəlirlərin bərabərliyinin pozulması sosial təbəqələşməni gücləndirir, iqtisadi artımın dayanıqlığını zəiflədir və uzunmüddətli inkişaf perspektivlərini məhdudlaşdırır. Məqalədə xüsusi olaraq vurğulanır ki, gəlir bərabərliyinin təminində bərabər nəticələr yanaşması deyil, bərabər imkanlara əsaslanan institusional və predistributiv mexanizmlər daha effektivdir. Azərbaycan və beynəlxalq təcrübənin müqayisəli təhlili əsasında gəlir bərabərliyinin qorunması üçün müasir və dayanıqlı yanaşmalar irəli sürülmüşdür.

Tədqiqatın məqsədi müasir dövrdə gəlirlərin bərabərliyinin aradan qaldırılmasının səbəblərini və nəticələrini araşdırmaq, onun qarşısının alınması istiqamətində müasir yanaşmaları müəyyən etməkdir.

Tədqiqatın metodologiyası. İqtisadi təhlil, müqayisəli analiz, sistemli yanaşma və elmi mənbələrin ümumiləşdirilməsi metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti. Nəticələr sosial-iqtisadi siyasətin formalaşdırılmasında və gəlir bölgüsü mexanizmlərinin təkmilləşdirilməsində istifadə oluna bilər.

Tədqiqatın nəticələri. Gəlir bərabərliyinin aradan qaldırılması sosial və iqtisadi sabitliyə mənfi təsir göstərir; bərabər imkanlara əsaslanan yanaşmalar daha səmərəlidir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Problemin bərabər imkanlar və predistribusiya prizmasından sistemli təhlili.

Açar sözlər: gəlirlər, gəlir bərabərliyi, sosial ədalət, bərabər imkanlar, bazar iqtisadiyyatı.

Giriş

Gəlir müəyyən dövr ərzində əldə edilən pul və ya maddi nemətlər şəklində ifadə olunan iqtisadi faydanı əks etdirir. İqtisadi nəzəriyyədə "gəlir" anlayışı cəmiyyətin iqtisadi həyatında mühüm yer tutan əsas kateqoriyalardan biri hesab olunur. Bu baxımdan gəlir, istehsal prosesində iştirakın, iqtisadi fəaliyyətin nəticəsi kimi formalaşır və əhalinin həyat səviyyəsinin müəyyənləşdirilməsində əsas göstəricilərdən biri kimi çıxış edir. Gəlirin iqtisadi məzmunu onun yalnız pul vəsaiti kimi deyil, həm də sosial-iqtisadi münasibətlərin ifadəsi olması ilə xarakterizə olunur. O, cəmiyyətin istehsal potensialı, əmək məhsuldarlığı, mövcud iqtisadi sistem və bölgü mexanizmləri ilə sıx bağlıdır. Müxtəlif iqtisadi sistemlərdə gəlirin formalaşması və bölgüsü fərqli prinsiplərə əsaslanır. Məsələn, bazar iqtisadiyyatı şəraitində gəlirlər əsasən istehsal amillərinə sahiblik və onların istifadəsi nəticəsində əldə edilir. Gəlir anlayışı eyni zamanda əhalinin rifah səviyyəsini, sosial vəziyyətini və yaşayış imkanlarını müəyyən edən əsas iqtisadi göstəricilərdən biridir. Əldə olunan gəlirin həcmi fərdlərin istehlak imkanlarını, təhsil və səhiyyə xidmətlərinə çıxışını, eləcə də sosial

təminat səviyyəsini müəyyən edir. Bu səbəbdən gəlirlərin formalaşması və bölgüsü məsələləri müasir dövrdə iqtisadi və sosial siyasətin mərkəzində dayanır. Gəlirlərin formalaşması müxtəlif iqtisadi fəaliyyət sahələri və mənbələr əsasında baş verir. Ənənəvi iqtisadi yanaşmaya görə, əsas gəlir mənbələri əmək, kapital, torpaq və sahibkarlıq fəaliyyətidir.

Əmək fəaliyyəti nəticəsində əldə olunan gəlir əməkhaqqı formasında ifadə olunur və əhalinin əsas gəlir mənbələrindən biri hesab edilir. Əməkhaqqının səviyyəsi işçinin ixtisası, təcrübəsi, əmək məhsuldarlığı və əmək bazarındakı tələbatla sıx bağlıdır. Müasir dövrdə “zehni” əmək və yüksək ixtisas tələb edən sahələrdə çalışan şəxslərin gəlirləri daha yüksək səviyyədə formalaşır. Kapitaldan əldə olunan gəlirlər faiz, dividend və icarə haqqı formasında meydana çıxır. Bu cür gəlirlər əsasən maliyyə resurslarına, istehsal vasitələrinə və daşınmaz əmlaka sahib olan iqtisadi subyektlər tərəfindən əldə edilir. Kapital gəlirləri gəlirlər arasında yaranan fərqin əsas səbəblərindən biri kimi çıxış edir. Torpaq və təbii resurslardan istifadə nəticəsində renta şəklində gəlirlər formalaşır. Bu gəlir növü daha çox kənd təsərrüfatı, mədən sənayesi və daşınmaz əmlak sektorlarında müşahidə olunur. Sahibkarlıq fəaliyyəti isə risk və təşəbbüs əsasında formalaşan mənfəət vasitəsilə gəlir əldə edilməsinə imkan yaradır.

Bəs gəlirlərin bərabərliyi anlayışı tam olaraq nəyi ehtiva edir? Bu anlayış, cəmiyyət üzvləri arasında əldə olunan gəlirlərin müəyyən balans və ədalət meyarları əsasında bölüşdürülməsini ifadə edir. Gəlirlərin bərabərliyi dedikdə, bütün fərdlərin eyni səviyyədə gəlir əldə etməsi deyil, onların iqtisadi fəaliyyət və imkanlarına uyğun şəkildə ədalətli gəlirə sahib olmaları nəzərdə tutulur. Müasir iqtisadi yanaşmalarda gəlirlərin bərabərliyi daha çox “bərabər imkanlar” prinsipi ilə izah olunur. Bu prinsipə əsasən, fərdlər təhsil, əmək bazarı və iqtisadi fəaliyyət sahələrinə bərabər çıxış imkanlarına malik olmalı, əldə etdikləri gəlir isə onların bilik, bacarıq və əmək fəaliyyətinin nəticəsi kimi formalaşmalıdır. Lakin real iqtisadi şəraitdə bu balans tez-tez pozulur və nəticədə gəlirlərin bərabərliyi aradan qalxır. Gəlirlərin bərabərliyi anlayışı eyni zamanda dövlətin sosial-iqtisadi siyasəti ilə də əlaqəlidir. Dövlət, müxtəlif iqtisadi alətlər vasitəsilə gəlirlərin bölgüsünə müdaxilə edərək sosial ədalətin təmin olunmasına çalışır. Bu müdaxilələr əsasən vergi siyasəti, sosial transferlər və əmək bazarının tənzimlənməsi yolu ilə həyata keçirilir. Buna görə də deyə bilərik ki, gəlirlərin bərabərliyi həm bazar mexanizmlərinin, həm də dövlət tənzimləməsinin nəticəsi kimi formalaşır.

Gəlirlərin bərabərliyi prinsipləri və onların bazar iqtisadiyyatında rolu

Gəlirlərin bərabərliyi prinsipləri arasında sosial ədalət prinsipi xüsusi yer tutur. Sosial ədalət cəmiyyət üzvləri arasında iqtisadi resursların, imkanların və əldə olunan nəticələrin ədalətli şəkildə bölüşdürülməsini nəzərdə tutur. Bu prinsipə əsasən iqtisadi sistem elə qurulmalıdır ki, fərdlərin sosial mənsubiyyəti, maddi vəziyyəti və ya digər obyektiv olmayan amillər onların iqtisadi imkanlarını məhdudlaşdırmasın. Bazar iqtisadiyyatı şəraitində sosial ədalət prinsipi daha mürəkkəb xarakter daşıyır. Çünki bazar mexanizmi gəlirlərin formalaşmasını əsasən rəqabət, tələb və təklif, eləcə də istehsal amillərinə sahiblik əsasında müəyyən edir. Nəticədə yüksək ixtisaslı əmək, kapital və sahibkarlıq fəaliyyəti daha yüksək gəlirlərlə müşayiət olunur. Bu isə gəlirlərin bərabərliyinin aradan qalxmasına səbəb ola bilər. Məhz bu nöqtədə sosial ədalət prinsipi dövlətin iqtisadi siyasətinə müdaxiləsini zəruri edir.

Sosial ədalətin təmin olunmasında dövlətin rolu əsasən fiskal və sosial siyasət vasitəsilə həyata keçirilir. Proqressiv vergi sistemi, sosial transferlər, minimum əməkhaqqının müəyyən edilməsi və sosial müdafiə proqramları bu prinsipin reallaşdırılmasının əsas mexanizmləridir. Məsələn, bir çox Avropa ölkələrində tətbiq olunan proqressiv vergi sistemi yüksək gəlir əldə edən təbəqələrin daha çox vergi ödəməsini nəzərdə tutur ki, bu da aşağı gəlirli əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir (Stiglitz, 2012). Beləliklə, sosial ədalət prinsipi bazar iqtisadiyyatının yaratdığı gəlir fərqlərini müəyyən qədər yumşaldaraq cəmiyyətin sosial sabitliyinin qorunmasına və rifah səviyyəsinin yüksəldilməsinə şərait yaradır.

Gəlirlərin bərabərliyi məsələsinə yanaşmada iqtisadi ədəbiyyatda əsasən iki konseptual yanaşma var. Bu, bərabər imkanlar və bərabər nəticələr yanaşmalarıdır. Bu yanaşmalar gəlirlərin böl-

güsünə fərqli prizmadan baxır və sosial-iqtisadi siyasətin formalaşdırılmasında mühüm rol oynayır. Bərabər imkanlar yanaşmasına görə, cəmiyyətin bütün üzvləri təhsil, məşğulluq və iqtisadi fəaliyyət sahələrinə bərabər çıxış imkanlarına malik olmalıdırlar. Bu halda gəlirlərdə yaranan fərqlər fərdlərin bilik, bacarıq, əmək məhsuldarlığı və təşəbbüskarlığı ilə izah olunur və iqtisadi cəhətdən əsaslandırılmış hesab edilir. Məsələn, yüksək təhsil almış və ixtisaslı mütəxəssislərin daha yüksək gəlir əldə etməsi bu yanaşma çərçivəsində normal qəbul olunur (Sen, 1999).

Bərabər nəticələr yanaşması isə gəlirlərin bölgüsündə son nəticəyə daha çox diqqət yetirir. Bu yanaşmaya əsasən, cəmiyyət üzvləri arasında gəlir fərqləri müəyyən həddi aşmamalıdır və dövlət bu fərqləri minimuma endirmək üçün aktiv rol oynamalıdır. Sosial transferlər, subsidiyalar və geniş sosial proqramlar bu yanaşmanın əsas alətləri hesab olunur. Skandinaviya ölkələrində tətbiq edilən sosial dövlət modeli bərabər nəticələr yanaşmasına nümunə kimi göstərilə bilər.

Qısamüddətli dövrdə bu yanaşma sosial gərginliyin azaldılması və aşağı gəlirli əhali qruplarının müdafiəsi baxımından müəyyən müsbət nəticələr versə də, uzunmüddətli perspektivdə bir sıra ciddi iqtisadi və sosial problemlərə yol açа bilər. Bərabər nəticələr yanaşmasının əsas çatışmazlıqlarından biri onun fərdi bacarıq, əmək məhsuldarlığı və məsuliyyət amillərini kifayət qədər nəzərə almamasıdır. Gəlirlərin süni şəkildə bərabərləşdirilməsi fərdlər arasında təşəbbüskarlığı və motivasiyanı zəiflədir, əmək fəaliyyətinin nəticəsi ilə əldə olunan gəlir arasında əlaqəni pozur. Nəticədə yüksək ixtisaslı və daha məhsuldar fərdlərin əməyinin dəyəri lazımi səviyyədə qiymətləndirilmir və bu da iqtisadi səmərəliliyin azalmasına səbəb olur. Praktikada tez-tez kvota və normativ mexanizmlərinə rast gəlirik. Bu isə bəzi hallarda sosial ədalətin təmin olunması əvəzinə əksinə, yeni haqsızlıqların yaranmasına gətirib çıxarır. Məsələn, müəyyən sosial və ya iqtisadi kvotaların doldurulması məqsədilə konkret vəzifələrə daha yüksək bilik, bacarıq və təcrübəyə malik namizədlər əvəzinə, yalnız formal bərabərlik meyarlarına cavab verən şəxslərin seçilməsi müşahidə olunur. Belə hallar uzunmüddətli dövrdə həm idarəetmənin keyfiyyətinə, həm də ümumi iqtisadi nəticələrə mənfi təsir göstərir. Bu baxımdan bir çox iqtisadçılar gəlirlərin bərabərliyinin təminində əsas diqqətin bərabər nəticələrə deyil, bərabər imkanların yaradılmasına yönəldilməsini daha məqsədəuyğun hesab edirlər.

Bərabər imkanlar yanaşması fərdlərin təhsil, əmək bazarı və iqtisadi resurslara çıxışını təmin etməklə, gəlir fərqlərinin obyektiv və ədalətli əsaslar üzərində formalaşmasına şərait yaradır. Belə olduğu zaman gəlirlərdə mövcud fərqlər fərdlərin şəxsi səyi, bilik və bacarıqları ilə izah olunur və sosial baxımdan daha qəbulolunan hesab edilir. Müasir bazar iqtisadiyyatı şəraitində gəlirlərin bərabərliyinin təmin edilməsi daha çox bərabər imkanların genişləndirilməsi və fərdi potensialın reallaşdırılması üzərində qurulmalıdır.

Bazar iqtisadiyyatı şəraitində gəlirlərin diferensiasiyası obyektiv və qaçılmaz bir proses kimi çıxış edir. Bu diferensiasiya əsasən istehsal amillərinin müxtəlifliyi, fərdlərin bilik və bacarıq səviyyəsi, əmək məhsuldarlığı, sahibkarlıq təşəbbüsü və risk götürmə qabiliyyəti ilə şərtlənir. Bazar mexanizmi tələb və təklif qanunları əsasında fəaliyyət göstərdiyindən, iqtisadi subyektlərin əldə etdikləri gəlirlər onların bazarda yaratdıqları dəyərdən birbaşa asılı olur. Bu diferensiasiya əmək bazarında xüsusilə aydın şəkildə müşahidə olunur. Əlbəttə ki, yüksək ixtisas, nadir bacarıqlar və innovativ fəaliyyətlər daha yüksək əmək haqqı ilə mükafatlandırılır. Məsələn, informasiya texnologiyaları, maliyyə və mühəndislik sahələrində çalışan mütəxəssislərin gəlirləri ənənəvi sahələrlə müqayisədə xeyli yüksəkdir. Bu fərqlər bazar iqtisadiyyatı baxımından səmərəli hesab olunur, çünki onlar insan kapitalının inkişafını stimullaşdırır (Mankiw, 2021).

Kapital və sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər də diferensiasiyanın əsas mənbələrindəndir. Kapitala çıxış imkanları, investisiya qərarlarının düzgünlüyü və bazar risklərinin idarə olunması gəlirlərin səviyyəsinə ciddi təsir göstərir. Bu baxımdan gəlirlərin diferensiasiyası iqtisadi inkişafın hərəkətverici qüvvələrindən biri kimi çıxış edir və innovasiya, rəqabət və məhsuldarlığın artımını təşviq edir. Lakin bazar iqtisadiyyatı şəraitində diferensiasiya müəyyən həddi aşdıqda sosial problemlərə yol açа bilər. Gəlir fərqlərinin kəskinləşməsi bərabər imkanların məhdudlaşmasına, sosial mobilliyin zəifləməsinə və uzunmüddətli dövrdə iqtisadi potensialın tam reallaşma-

masına səbəb ola bilər. Bu səbəbdən gəlirlərin diferensiasiyası iqtisadi səmərəlilik baxımından zəruri olsa da, onun sosial nəticələri diqqətlə tənzimlənməlidir.

Dövlətin gəlirlərin bölgüsündə iştirakı bazar iqtisadiyyatının sosial yönümlü fəaliyyətinin təmin olunmasında mühüm rol oynayır. Dövlətin əsas məqsədi bazar mexanizminin yaratdığı gəlir fərqlərini tam aradan qaldırmaq deyil, onların sosial baxımdan qəbuledilən hədlər daxilində qalmasını təmin etməkdir. Bu iştirak daha çox tənzimləyici və kompensasiyaedici xarakter daşıyır. Dövlətin gəlirlərin bölgüsünə təsir göstərdiyi əsas mexanizmlər fiskal və sosial siyasət alətləridir. Vergi sistemi vasitəsilə yüksək gəlir əldə edən təbəqələrdən toplanan vəsaitlər sosial transferlər, təhsil, səhiyyə və sosial müdafiə proqramlarının maliyyələşdirilməsinə yönəldilir. Bu yanaşma bərabər imkanların genişləndirilməsinə xidmət edir və uzunmüddətli dövrdə gəlir bərabərliyinin qorunmasına şərait yaradır (Atkinson, 2015).

Ancaq qeyd etmək lazımdır ki, dövlətin gəlirlərin bölgüsünə həddindən artıq müdaxiləsi bazar mexanizmlərinin səmərəliliyini azalda bilər. Əgər vergi yükü və redistributiv mexanizmlər iqtisadi təşəbbüsü zəiflədirsə, bu, investisiyaların azalmasına və iqtisadi artım tempinin aşağı düşməsinə səbəb olur. ABŞ və bir sıra Avropa ölkələrinin təcrübəsi göstərir ki, optimal balansın qorunması dövlət siyasətinin əsas çağırışlarından biridir (Friedman, 2002). Bu baxımdan, dövlətin gəlirlərin bölgüsündə iştirakı daha çox bərabər imkanların yaradılmasına yönəlməlidir. Təhsilin əlçatanlığının artırılması, əmək bazarında rəqabətin qorunması, kiçik və orta sahibkarlığın dəstəklənməsi gəlir bərabərliyinin uzunmüddətli və dayanıqlı təminində daha effektiv vasitələr hesab olunur.

Müasir dövrdə gəlirlərin bərabərliyinin aradan qaldırılmasına təsir edən əsas amillər

Müasir dövrdə gəlirlərin bərabərliyinin aradan qaldırılması tək bir səbəblə deyil, bir-biri ilə qarşılıqlı əlaqədə olan çoxsaylı iqtisadi, sosial və institusional amillərlə şərtlənir. Qloballaşma, texnoloji inkişaf, əmək bazarındakı dəyişikliklər, təhsil sistemindəki fərqlər və regional qeyri-bərabərliklər bu məsələyə birbaşa təsir göstərən əsas faktorlar sırasında yer alır.

Qloballaşma gəlir bölgüsünə təsir edən əsas amillərdən biridir. Beynəlxalq ticarətin liberallaşması, kapitalın sərbəst hərəkəti və beynəlxalq şirkətlərin rolunun artması iqtisadi artımı sürətləndirsə də, gəlirlərin bərabərliyi baxımından ziddiyyətli nəticələr doğurur. Qloballaşma yüksək ixtisaslı əmək və kapital sahibləri üçün yeni imkanlar yaradır, lakin aşağı ixtisaslı işçi qüvvəsinin gəlirlərinə təzyiq göstərir. Məsələn, inkişaf etmiş ölkələrdə istehsalın bir hissəsinin ucuz işçi qüvvəsinə malik ölkələrə köçürülməsi aşağı ixtisaslı işçilərin əməkhaqlarının artım tempini zəiflədir. Bu isə gəlirlərin bərabərliyinin aradan qalxmasına zəmin yaradır (Stiglitz, 2012).

Texnoloji tərəqqi və rəqəmsallaşma da həmçinin gəlir diferensiyasının formalaşmasına və bölgüsünə ciddi təsir göstərir. Avtomatlaşdırma və süni intellekt texnologiyalarının geniş tətbiqi bəzi peşələrin sıradan çıxmasına, eyni zamanda yüksək ixtisas və analitik bacarıq tələb edən sahələrdə gəlirlərin artmasına səbəb olur. Bu proses “bacarıq əsaslı gəlir fərqləri”nin dərinləşməsinə gətirib çıxarır. Texnologiyaya uyğunlaşa bilən və bilik iqtisadiyyatında fəaliyyət göstərən fərdlər daha yüksək gəlir əldə etdikləri halda, bu imkanlardan kənarda qalan əhali qrupları iqtisadi baxımdan geridə qalır. Bu isə uzunmüddətli dövrdə gəlirlərin bərabərliyinin aradan qaldırılmasını sürətləndirir (Autor, 2014).

Təhsil də gəlirlərin formalaşmasında ən əsas rol oynayan amillərdən biridir. Müasir iqtisadiyyatda yüksək keyfiyyətli təhsilə malik olan fərdlər əmək bazarında daha rəqabətqabiliyyətli olur və daha yüksək gəlir əldə edirlər. Lakin təhsilə çıxış imkanlarının bərabər olmaması gələcək gəlir fərqlərinin əsasını qoyur. Aşağı gəlirli ailələrdən olan şəxslərin keyfiyyətli təhsilə çıxış imkanlarının məhdudluğu sosial mobilliyi zəiflədir və gəlirlərin nəsillərarası ötürülməsi problemini dərinləşdirir. Bu hal gəlirlərin bərabərliyinin uzunmüddətli dövrdə pozulmasına səbəb olan əsas struktur amillərdən biri kimi çıxış edir (Sen, 1999).

Regionlar arasında iqtisadi inkişaf səviyyəsinin fərqli olması da gəlirlərin bərabərliyinin aradan qaldırılmasına təsir edən mühüm amillərdəndir. İnfrastrukturun inkişaf etdiyi, investisiya mühitinin əlverişli olduğu regionlarda gəlirlər daha yüksək səviyyədə formalaşır. Əksinə, iqtisadi imkanların məhdud olduğu regionlarda əhalinin gəlir səviyyəsi aşağı qalır. Bununla yanaşı, insti-

tusional mühitin keyfiyyəti, məsələn, hüquqi sistem, mülkiyyət hüquqlarının qorunması və dövlət idarəçiliyinin səmərəliliyi kimi amillər gəlirlərin bölgüsünə birbaşa təsir göstərir. Güclü institutlara malik ölkələrdə gəlir fərqləri daha idarəolunan xarakter daşıyır, zəif institutlar isə bərabərsizliyi daha da dərinləşdirir (Acemoglu & Robinson, 2012).

Gəlirlərin bərabərliyinin qorunması və bərpası istiqamətində müasir yanaşmalar

Müasir dövrdə gəlirlərin bərabərliyinin qorunması və bərpası məsələsinə yanaşmalar əvvəlki klassik redistributiv modellərdən fərqli olaraq daha kompleks və uzunmüddətli strategiyalar üzərində qurulur. İqtisadi nəzəriyyə və praktiki siyasi qərarlar getdikcə daha çox gəlirlərin sonradan yenidən bölüşdürülməsindən deyil, ilkin mərhələdə daha ədalətli formalaşmasını təmin edən mexanizmlərdən istifadəni ön plana çıxarır. Bu yanaşma iqtisadi ədəbiyyatda “predistribusiya” konsepsiyası kimi tanınır və gəlir bərabərliyinin bazar mexanizmi daxilində qorunmasını hədəfləyir.

Predistributiv yanaşmanın əsas məqsədi bazar iqtisadiyyatının yaratdığı imkanlardan daha geniş sosial təbəqələrin faydalanmasını təmin etməkdir. Bu kontekstdə rəqabət mühitinin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Monopoliyaların və bazar gücünün həddindən artıq cəmləşməsinin qarşısının alınması əmək bazarında əməkhaqqı təzyiqlərini azaldır və gəlirlərin daha ədalətli formalaşmasına şərait yaradır. Son illərdə aparılan tədqiqatlar göstərir ki, rəqabət səviyyəsi yüksək olan iqtisadiyyatlarda əmək gəlirlərinin milli gəlirdə payı daha stabil xarakter daşıyır (OECD, 2020). Müasir yanaşmaların digər mühüm istiqaməti insan kapitalının keyfiyyətinin yüksəldilməsidir. Burada əsas vurğu yalnız təhsilə çıxışın genişləndirilməsi ilə kifayətlənmir. Təhsilin keyfiyyətinin və əmək bazarı ilə uyğunluğunun artırılması hal-hazırda daha aktual məsələyə çevrilib. Rəqəmsal bacarıqların, analitik düşüncənin və adaptiv qabiliyyətlərin inkişaf etdirilməsi fərdlərin texnoloji dəyişikliklərə uyğunlaşmasını asanlaşdırır və gəlir bərabərliyinin uzunmüddətli qorunmasına xidmət edir. Məsələn, bir sıra ölkələrdə tətbiq olunan “ömürlük” təhsil proqramları əmək bazarında struktur dəyişikliklərinin yaratdığı riskləri əhəmiyyətli dərəcədə azaldır (World Economic Forum, 2023).

Gəlirlərin bərabərliyinin qorunmasında əmək bazarı institutlarının rolu da müasir yanaşmalarda xüsusi yer tutur. Minimum əməkhaqqının iqtisadi reallıqlara uyğun müəyyən edilməsi, kollektiv danışıqlar mexanizmlərinin gücləndirilməsi və qeyri-rəsmi məşğulluğun azaldılması əmək gəlirlərinin sabitliyini artırır. Bu alətlər gəlirlərin süni şəkildə bərabərləşdirilməsi deyil, bazar daxilində daha balanslı gəlir formalaşmasını təmin etməyə yönəlmişdir. Vergi siyasəti də müasir yanaşmalarda keyfiyyət baxımından yeni məzmun qazanır. Ənənəvi yüksək redistributiv vergi modellərindən fərqli olaraq, müasir vergi siyasəti daha çox vergi bazasının genişləndirilməsinə, vergidən yayınmanın qarşısının alınmasına və neytral vergi mexanizmlərinin tətbiqinə üstünlük verir. Bu, həm iqtisadi təşəbbüsü qoruyur, həm də dövlətə sosial və institusional investisiyalar üçün dayanıqlı maliyyə mənbəyi yaradır (IMF, 2022).

Azərbaycan və beynəlxalq təcrübədə gəlirlərin bərabərliyinə yanaşmalar

Müasir dövrdə gəlirlərin bərabərliyinin qorunması və təmin edilməsi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr üçün aktual sosial-iqtisadi çağırışlardan biridir. Bu sahədə tətbiq olunan yanaşmalar ölkələrin iqtisadi inkişaf səviyyəsindən, institusional mühitindən və sosial siyasət prioritetlərindən asılı olaraq fərqlənir. Azərbaycan və beynəlxalq təcrübənin müqayisəli təhlili gəlir bərabərliyinə yanaşmaların ümumi və spesifik cəhətlərini aydın şəkildə üzə çıxarmağa imkan verir. Azərbaycanda gəlirlərin bərabərliyi məsələsi əsasən sosial yönümlü iqtisadi siyasət çərçivəsində nəzərdən keçirilir. Dövlətin iqtisadiyyatda aktiv rolu, sosial müdafiə proqramlarının genişləndirilməsi və əhalinin həssas təbəqələrinin qorunması bu siyasətin əsas istiqamətlərindəndir. Son illərdə minimum əməkhaqqının mərhələli şəkildə artırılması, pensiya və sosial müavinət sisteminin təkmilləşdirilməsi əhalinin gəlir səviyyəsinin qorunmasına yönəlmiş əsas tədbirlər kimi çıxış edir. Bu yanaşma qısamüddətli dövrdə sosial risklərin azaldılmasına və yoxsulluğun məhdudlaşdırılmasına müsbət təsir göstərmişdir. Azərbaycan təcrübəsində gəlir bərabərliyinin uzunmüddətli təminində struktur və institusional amillərin rolu hal-hazırda daha da aktuallaşmaqdadır. Regionlar arasında iqtisadi inkişaf fərqləri, qeyri-neft sektorunun məhdud gəlir yaradıcı

potensialı və əmək bazarında məhsuldarlıq fərqləri gəlirlərin bərabərliyinin qorunmasını çətinləşdirən əsas faktorlar sırasında yer alır. Bu baxımdan beynəlxalq təcrübədə geniş tətbiq olunan bərabər imkanlara əsaslanan yanaşmalar Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edir (World Bank, 2023).

Beynəlxalq praktikada gəlirlərin bərabərliyinə yanaşmalar əsasən üç model üzrə formalaşır: sosial-demokratik, liberal və qarışıq modellər. Skandinaviya ölkələrində tətbiq olunan sosial-demokratik model güclü institutlar, yüksək keyfiyyətli təhsil sistemi və effektiv əmək bazarı mexanizmləri vasitəsilə gəlirlərin ilkin mərhələdə daha balanslı formalaşmasını təmin edir. Bu ölkələrdə əsas vurğu sosial transfertlərdən çox insan kapitalının inkişafına və əmək bazarında inklüzivliyə yönəldilir. ABŞ və Böyük Britaniya kimi liberal iqtisadi modellərə malik ölkələrdə isə gəlirlərin diferensiasiyası daha geniş xarakter daşıyır. Bu ölkələrdə dövlətin birbaşa redistributiv rolu nisbətən məhdud olsa da, son illərdə təhsilə çıxışın genişləndirilməsi, minimum əmək standartlarının gücləndirilməsi və rəqabət siyasətinin sərtləşdirilməsi istiqamətində addımlar atılır. Bu dəyişikliklər gəlir bərabərliyinin yalnız sosial transferlər vasitəsilə deyil, bazar mexanizmlərinin təkmilləşdirilməsi yolu ilə təmin edilməsinin vacibliyini göstərir (OECD, 2021).

İnkişaf etməkdə olan ölkələrin təcrübəsi isə göstərir ki, gəlirlərin bərabərliyinin qorunması əsasən institusional keyfiyyət və iqtisadi strukturun diversifikasiyası ilə sıx bağlıdır. Güclü hüquqi sistem, şəffaf idarəetmə və effektiv dövlət institutları gəlir fərqlərinin sosial baxımdan təhlükəli səviyyəyə çatmasının qarşısını alan əsas amillər kimi çıxış edir. Bu kontekstdə beynəlxalq təcrübə gəlir bərabərliyinin təminində universal deyil, hər ölkənin özünəməxsus və mərhələli yanaşmaların daha effektiv olduğunu nümayiş etdirir (UNDP, 2022).

Azərbaycan və beynəlxalq təcrübə bizə göstərir ki, gəlirlərin bərabərliyinin qorunması yalnız sosial ödənişlər və qısamüddətli müdaxilələrlə məhdudlaşmamalıdır. Daha dayanıqlı nəticələr bərabər imkanların genişləndirilməsi, iqtisadi strukturun şaxələndirilməsi, insan kapitalına investisiyalar və institusional mühitin gücləndirilməsi vasitəsilə əldə olunur.

Nəticə

Tədqiqatımız göstərir ki, müasir dövrdə gəlirlərin bərabərliyinin aradan qaldırılması sosial-iqtisadi inkişaf üçün ən aktual və mürəkkəb problemlərdən biri olaraq qalmaqdadır. Gəlirlərin formalaşma mexanizmləri, bazar iqtisadiyyatının xüsusiyyətləri və institusional mühitin keyfiyyəti bu prosesə birbaşa təsir göstərir. Məqaləmizdə gəlir anlayışının iqtisadi mahiyyəti, gəlir bərabərliyinin nəzəri əsasları və müasir dövrdə bu bərabərliyin pozulmasına səbəb olan amillər kompleks şəkildə təhlil edilmişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, gəlirlərin diferensiasiyası bazar iqtisadiyyatının təbii xüsusiyyəti olsa da, bu prosesin həddindən artıq dərinləşməsi sosial təbəqələşməni gücləndirir, sosial mobilliyi zəiflədir və iqtisadi artımın dayanıqlılığını təhlükə altına alır. Gəlir bərabərliyinin aradan qaldırılmasının sosial nəticələri yoxsulluğun artması, sosial ədalət anlayışının zəifləməsi və ictimai sabitliyə olan risklərin yüksəlməsi ilə müşayiət olunur. İqtisadi baxımdan isə bu proses resursların qeyri-səmərəli bölgüsünə, insan kapitalının zəif inkişafına və uzunmüddətli iqtisadi potensialın məhdudlaşmasına gətirib çıxarır.

Xüsusi olaraq vurğulamalıyıq ki, gəlirlərin bərabərliyinin təminində əsas diqqət qısamüddətli və süni bərabərləşdirmə mexanizmlərinə deyil, bərabər imkanların yaradılmasına yönəldilməlidir. Müasir yanaşmalar göstərir ki, gəlir bərabərliyinin qorunması bazar mexanizmlərinin keyfiyyətinin artırılması, rəqabət mühitinin gücləndirilməsi, insan kapitalına strateji investisiyalar və institusional mühitin təkmilləşdirilməsi vasitəsilə daha səmərəli şəkildə həyata keçirilə bilər.

Azərbaycan və beynəlxalq təcrübənin təhlili də təsdiq edir ki, gəlir bərabərliyinin dayanıqlı təminatı ölkənin iqtisadi strukturunun şaxələndirilməsi, regionlararası inkişaf fərqlərinin azaldılması və sosial-iqtisadi siyasətin uzunmüddətli məqsədlərə uyğunlaşdırılması ilə mümkündür. Bu baxımdan dövlətin rolu bazar mexanizmlərini əvəz etmək deyil, onların daha ədalətli və inklüziv fəaliyyətini təmin etməkdən ibarət olmalıdır.

Nəticə etibarilə, gəlirlərin bərabərliyinin qorunması və bərpası yalnız sosial rifahın yüksəldil-

məsi baxımından deyil, həm də iqtisadi inkişafın keyfiyyətinin artırılması və cəmiyyətin uzunmüddətli sabitliyinin təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir. Bu sahədə həyata keçirilən siyasətlərin elmi əsaslara söykənməsi və milli iqtisadi xüsusiyyətlər nəzərə alınmaqla formalaşdırılması gələcək tədqiqatlar və praktiki qərarlar üçün mühüm istiqamət kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1. Acemoglu, D., & Robinson, J. A. (2012). Why Nations Fail. Crown Business.
2. Acemoglu, D., & Robinson, J. A. (2019). The Narrow Corridor. Penguin Press.
3. Atkinson, A. B. (2015). Inequality: What Can Be Done? Harvard University Press.
4. Autor, D. (2014). Skills, Education, and the Rise of Earnings Inequality. Annual Review of Economics.
5. Bourdieu, P. (1986). The Forms of Capital. In: Handbook of Theory and Research for the Sociology of Education.
6. Friedman, M. (2002). Capitalism and Freedom. University of Chicago Press.
7. Hayek, F. A. (1944). The Road to Serfdom. Routledge.
8. IMF. (2015). Causes and Consequences of Income Inequality: A Global Perspective.
9. IMF. (2022). Fiscal Policy and Inequality.
10. Krugman, P. (2012). End This Depression Now!. W. W. Norton & Company.
11. Mankiw, N. G. (2021). Principles of Economics. Cengage Learning.
12. Ministry of Economy of the Republic of Azerbaijan. Socio-economic development reports.
13. OECD. (2020). Competition Policy and Inclusive Growth.
14. OECD. (2021). Reducing the Gap: Inclusive Growth Policies.
15. Putnam, R. D. (2000). Bowling Alone. Simon & Schuster.
16. Sen, A. (1999). Development as Freedom. Oxford University Press.
17. Stiglitz, J. E. (2012). The Price of Inequality. W. W. Norton & Company.
18. UNDP. (2022). Human Development Report.
19. Wilkinson, R., & Pickett, K. (2009). The Spirit Level. Penguin Books.
20. World Bank. (2022). Poverty and Shared Prosperity Report.
21. World Bank. (2023). Azerbaijan Country Economic Memorandum.
22. World Economic Forum. (2023). Future of Jobs Report.

Саттар Джейхун оглы Томаев
МагистрантАзербайджанский Университет Туризма и Менеджмента

Научный руководитель: к.э.н. Зохраб Гасан оглы Ибрагимов
Доцент кафедры «Финансы и аудит»
Азербайджанского Государственного Экономического Университета

Актуальные проблемы устранения равенства доходов в современный период

Резюме

В статье комплексно исследуются социально-экономические аспекты устранения равенства доходов в современных условиях. В рамках исследования проанализированы экономическая сущность доходов, дифференциация доходов в условиях рыночной экономики, а также основные факторы, влияющие на данный процесс. Установлено, что нарушение равенства доходов усиливает социальную стратификацию, снижает устойчивость экономического роста и ограничивает перспективы долгосрочного развития. В статье особо подчёркивается, что при обеспечении равенства доходов более эффективными являются не подходы, ориентированные на равные результаты, а институциональные и предраспределительные механизмы, основанные на равных возможностях. На основе сравнительного

анализа азербайджанского и международного опыта предложены современные и устойчивые подходы к сохранению равенства доходов.

Цель исследования: Анализ причин и последствий устранения равенства доходов в современный период, а также определение актуальных подходов к предотвращению данного процесса.

Методология исследования: В исследовании использованы методы экономического анализа, сравнительного анализа, системного подхода и обобщения научных источников.

Практическая значимость исследования: Полученные результаты могут быть использованы при формировании социально-экономической политики и совершенствовании механизмов распределения доходов.

Результаты исследования: Установлено, что устранение равенства доходов оказывает негативное влияние на социальную и экономическую стабильность; подходы, основанные на равных возможностях, являются более эффективными.

Оригинальность и научная новизна исследования: Системный анализ проблемы равенства доходов с позиций равных возможностей и предраспределительных механизмов.

Ключевые слова: доходы, равенство доходов, социальная справедливость, равные возможности, рыночная экономика

Sattar Jeyhun Tomayev
Master’s student of Azerbaijan Tourism and Management University
Scientific supervisor: c.e.s. Zohrab Hasan Ibrahimov
Associate Professor of the Department of Finance and Audit,
Azerbaijan State University of Economics, Candidate of Economic Sciences

Current issues in eliminating income equality in the modern era

Summary

The article provides a comprehensive analysis of the social and economic aspects of the elimination of income equality in the modern era. The study examines the economic nature of income, income differentiation under market economy conditions, and the key factors influencing this process. The findings indicate that the disruption of income equality intensifies social stratification, weakens the sustainability of economic growth, and limits long-term development prospects. The article emphasizes that ensuring income equality is more effectively achieved through institutional and predistributive mechanisms based on equal opportunities rather than approaches focused on equal outcomes. Based on a comparative analysis of Azerbaijani and international experience, modern and sustainable approaches to preserving income equality are proposed.

Purpose of the research: To analyze the causes and consequences of the elimination of income equality in the modern era and to identify contemporary approaches to preventing this process.

Methodology of the research: The study employs economic analysis, comparative analysis, a systemic approach, and the synthesis of academic sources.

Practical significance of the research: The results can be applied in the formulation of socio-economic policy and the improvement of income distribution mechanisms.

Results of the research: The elimination of income equality negatively affects social and economic stability; approaches based on equal opportunities are more effective.

Originality and scientific novelty of the research: A systematic analysis of income equality from the perspective of equal opportunities and predistributive mechanisms.

Key words: income, income equality, social justice, equal opportunities, market economy.